**Mirzə M.** Şəhid olmağı özünə şərəf bildi // Respublika. - 2024. - 8 oktyabr. - **№ 220**. - S. 4.

**Vətən torpaqlarının azadlığı uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksələn Fərhad Vüqar oğlu Fərhadlı 8 dekabr 1993-cü il tarixdə Sumqayıt şəhərində anadan olub. Şəhid olmağı özünə şərəf bilən, yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, sarsılmaz əqidə daşıyıcısı Fərhad şüurlu şəkildə ölümü gözə alanlardandır. O, "Kapital bank"ın əməkdaşı idi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Fərhad bir an belə tərəddüd etmədən ordu sıralarına qayıdıb, Füzuli uğrunda gedən döyüşlərdə savaşıb. 20 oktyabrda Füzuli rayonu Gecəgözlü kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən şəhid olub.**

Şəhidimizin atası Vüqar Fərhadlı qəhrəman oğlunun döyüş yolundan danışır: "Fərhad evin tək oğlu idi, bir bacısı var. Orta məktəbi bitirdikdən sonra Fərhad Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil aldı. Universiteti bitirdikdən sonra 2016-cı ildə hərbi xidmətə yollandı. Şanlı Aprel döyüşləri zamanı o da ordu sıralarında idi. Hərbi xidmətini başa vurduqdan sonra 2017-2018-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Biznesin idarə olunması üzrə magistr təhsili aldı. Fərhad çox tərbiyəli, ağıllı uşaq idi. İlk dəfə iş həyatına "Gilan-Holdinq"də başladı. Sonra isə "Kapital Bank"da işlədi. Hər iki iş yerində kollektivin hörmətini qazanmışdı. 2017-ci ildə ailə həyatı qurdu və İnci adında bir qızı var. Fərhad çox sosial, ətrafı geniş, qohumlar, dostları arasında hörməti olan bir uşaq idi. Hətta o müharibədə də döyüş yoldaşlarının hörmətini qazanmışdı. Həmişə də özündən böyüklərlə oturub-durardı. Onun siyasətə və futbola çox böyük həvəsi var idi. Ona görə də baş verən bütün hadisələri izləyirdi. Fərhad şəhidlik zirvəsindən heç vaxt danışmasa da Tovuz döyüşlərində şəhid olan Milli Qəhrəman, general Polad Həşimova görə çox kədərlənmişdi. Mən özüm Birinci Qarabağ döyüşlərinin iştirakçısı olmuşam. Fərhad Allaha inanan, həmişə onu qəlbində yaşadan bir uşaq idi. Arzusu evini təmir edib, ailəsilə ora köçmək idi. O, şəhid olandan sonra hər şey dəyişdi. Həyatımız ancaq məcburiyyətlərdən ibarətdi. İndi onun ata həsrətilə böyüyən bir İncisi var".

Döyüş yoldaşı Füzuli Mayılov: "24 sentyabr tarixində Fərhadla ilk dəfə söhbət etmişdik. İlk söhbətimizdə necə ağır xasiyyətli biri olduğunu hiss etdim. Daha sonra hər düzülüşdə yanımda dayanırdı, söhbətləşirdik. 27 sentyabr səhər saatlarında döyüş əmri gəldi. "Kamaz"da yan-yana oturduq yol boyunca fikirli idik, lakin ruh yüksəkliyi var idi. Fərhad daim uşaqları ruhlandırırdı. Yorğun idik, yol boyu bir-

birimizə söykənib dincəlirdik. Fərhad həmişə mənə motivasiya verirdi. 27 sentyabrda Füzuli rayonundan döyüşə qoşulacaqdıq, lakin Horadizdə bölüyümüz vuruldu. 3 şəhid verdik, 17 yaralı. Fərhad sanitar idi. Yaralılara dərhal kömək elədi, özünü itirmədi, hər kəsə sakit olmağı, özünü itirməməyi tapşırdı. 30 sentyabra qədər Füzulidə mövqeləndik. Fərhadla orada dostluğumuz daha da möhkəmləndi, mənə kiçik qardaşı kimi daim dəstək verirdi. 30 sentyabrda hücum əmri gəldi bizim tabora. Həmin gün Füzuli istiqamətində çox ağır döyüş oldu. İtki və yaralılar çox idi, Fərhadın vəzifəsi ən çətin vəzifə idi, çünki yaralıların həyatda qalması onun ilkin müdaxiləsinə bağlı idi.

Fərhadın istiliyi var idi. Bu halda belə ancaq fikri bizim yanımızda olmaq idi. 3 oktyabr tarixində Füzulidə şiddətli döyüşlər başladı, mən bu döyüşdə yaralandım. İlkin müdaxilədən sonra Fərhad yaramı sarıdı, məni oradan çıxardı. Döyüş yoldaşlarımız həmin gün və sonrakı döyüşlərin hər birində Fərhadın əməyindən danışırdı. Bir döyüşdə 12 yaralı əsgərə iynə vurdu, yarasını təmizləyib döyüş meydanından çıxarılmasına kömək etdi. 4 güllə yarası almış əsgərimizə ilk yardımı o etdi. Mən hospitaldan qayıtdıqdan sonra 15 oktyabr Cəbrayıl istiqamətində irəliləmək tapşırığı aldıq. Fərhad hər dəfəsində uşaqları ruhlandırır, döyüşə həvəsləndirirdi. Aldığımız hər torpağa ayaq basanda Fərhadın gözündəki o qürur hissini görürdüm. Vətənə çox bağlı idi. Soyuqda yatanda Fərhad öz buşlatı ilə üstümü örtür, nəfəsi ilə əllərimi qızdırırdı. Böyük qardaş kimi hər an yanımda idi. Fərhad orada sadəcə döyüş yoldaşı deyildi, bizə hər birimizin ümid, güvən yeri idi. Çünki biz bilirdik ki, bizə nəsə olsa, Fərhad nə olur-olsun bizi oradan çıxaracaq, yaramızı sarıyacaq. Düşməni kənddən qovan zaman Fərhadla birgə düşmənin üzərinə qaçanda onun gözündəki nifrəti gördüm. Yeməyini, suyunu hər kəslə paylaşırdı. Qızının ad günü olacaqdı, 24 oktyabr onun yanında olacağına çox ümid edirdi. 19 oktyabr günü ailəsi ilə danışdı, yenə həmişə olduğu kimi, ailəsinə təskinlik verir, döyüşdə olmadığını, arxada olduğunu deyirdi. Oktyabrın 20-də pusquya düşdük. Fərhad yaralıları çıxarırdı. Durmadan hər birinə kömək edirdi. Taborun qabağında çıxış edirdi, ruhlandırır, həvəsləndirirdi hamını. Daha sonra yenidən irəlidə yaralı vəziyyətdə qalan yaralıları, şəhidləri çıxarmaq üçün döyüş meydanına yollanan zaman düşmən mərmisi Fərhadın çox yaxınına düşdü. Fərhad şəhid oldu".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Fərhad Fərhadlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.